## "İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida ~~(ərzaq)~~ məhsullarının siyahısı"nın təsdiq edilməsi haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida ~~(ərzaq)~~ məhsullarının siyahısı" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 15 yanvar 2024-cü il
№ 22

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

### İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida ~~(ərzaq)~~ məhsullarının

### S İ Y A H I S I

| **Sıra №-si** | **Məhsul növləri təsnifatı (AZT053-2018)** | **MNT kodu** | **MNT kodları üzrə şərtlər** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **1.** | **Süfrə zeytunu** | 01.26.11.00 | |
| **2.** | **Suxarı və peçenyelər; konservləşdirilmiş təzə pirojnalar və şirniyyatlar** | | qeyd olunan MNT kodları üzrə məhsul növlərinə münasibətdə |
| | Xırtıldayan kökələr | 10.72.11.30 | |
| | Suxarılar, qrenkalar və s. xırtıldayan məmulatlar | 10.72.11.50 | |
| | Şirin peçenye və vaflilər | 10.72.12.50 | |
| | Sair qurudulmuş və ya uzun müddət saxlanıla bilən çörək-bulka məmulatları | 10.72.19.00 | |
| **3.** | **Makaron, əriştə, kuskus və oxşar un məmulatları** | | qeyd olunan MNT kodları üzrə məhsul növlərinə münasibətdə |
| | İçsiz, bişirilməmiş və ya başqa üsulla hazırlanmamış makaron məmulatı | 10.73.11.10 | |
| | Tərkibində yumurta olan bişirilməmiş makaron məmulatları | 10.73.11.30 | |
| | Tərkibində yumurta olmayan bişirilməmiş makaron məmulatları | 10.73.11.50 | |
| | İçli, bişirilmiş və ya başqa üsulla hazırlanmış makaron məmulatı | 10.73.11.60 | |
| | İçli, bişirilmiş və sair makaron məmulatları | 10.73.11.70 | |

| | | | |
|---|---|---|---|
| | Kuskus | 10.73.12.00 | |
| 4. | **Kakao, şokolad və şəkərli şirniyyat məmulatları** | | qeyd olunan MNT kodları üzrə məhsul növlərinə münasibətdə |
| | Pasta şəkilli tərkibində kakao olan qida məhsulları | 10.82.22.60 | |
| | Tərkibində kakao olmayan, ağ şokolad da daxil edilməklə şəkərdən şirniyyat məmulatı | 10.82.23.10 | |
| | Bişirilmiş konfetlər (karamel, toffi və s.) | 10.82.23.70 | |

**Qeydlər:**

1. Bu siyahı qida ~~(ərzaq)~~ məhsullarının xammalından istifadə edərək həmin xammal üzərində istehsal (emal) əməliyyatlarını həyata keçirməklə qida ~~(ərzaq)~~ məhsularının istehsalını (emalını) həyata keçirən vergi ödəyicilərinə şamil olunur.

2. Xammal və ya hazır məhsulların hər hansı istehsal (emal) əməliyyatlarına məruz qoymadan bükülməsi, qablaşdırması və ya etiketlənməsi vergitutma məqsədləri üçün qida ~~(ərzaq)~~ məhsularının istehsalı (emalı) hesab edilmir və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.37-ci, 106.1.31-ci, 199.17-ci və 207.10-cu maddələrində nəzərdə tutulmuş vergi güzəştləri bu fəaliyyətləri həyata keçirən vergi ödəyicilərinə şamil edilmir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 4 sentyabr 2024-cü il tarixli **392** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 sentyabr 2024-cü il, "Xalq" qəzeti, 12 sentyabr 2024-cü il, № 198)**


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 4 sentyabr 2024-cü il tarixli **392** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 sentyabr 2024-cü il, "Xalq" qəzeti, 12 sentyabr 2024-cü il, № 198)** ilə adından, ikinci abzasından, həmin Qərarla təsdiq edilmiş "İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı"nın adından, "Qeydlər" hissəsinin 1-ci abzasından (hər iki halda) və 2-ci abzasından "(**ərzaq**)" sözü çıxarılmışdır.